*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №008 (196) iyul 2020-ci il

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 29-da Qobustan rayonuna səfəri









***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qobustan rayonuna səfərə gəlib. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyduqdan sonra koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışında iştirak edib.***

Dövlətimizin başçısına modul tipli xəstəxanada yaradılan şərait barədə məlumat verildikdən sonra bildirilib ki, üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə, həmçinin mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün zəruri şərait yaradılıb. Ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür.

Bu korpus zərurət olmadıqda - yəni, pandemiya ilə mübarizə başa çatdıqdan sonra asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün - məsələn, hərbi hissələr, sərhəd xidməti, tədris və ya fövqəladə hallar, yataq, məişət xidməti və sair üçün istifadə edilə bilər.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb. Mayın 7-də Bakıda 1 saylı Kliniki Tibbi Mərkəzdə ilk, iyunun 9-da 28 saylı Bilgəh qəsəbəsində Birləşmiş Şəhər Xəstəxanasının, 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının və Abşeron rayonunun Saray qəsəbə xəstəxanasının, iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusları, iyulun 6-da Xətai rayonunda modul tipli hospital istifadəyə verilib. Növbəti modul tipli infeksion xəstəliklər korpusu Qobustan rayonunda quraşdırılıb. Bu komplekslər rayon mərkəzi xəstəxanalarının yaxınlığında quraşdırılaraq onlara təhkim olunur ki, bu da koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edir.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib

- İyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olmuş, yaralanmışlar. Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur;
- Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbçilərimizin intiqamı alınmış, onların qanı yerdə qalmamış və düşmənə elə bir zərbə endirilmişdir ki, uzun illər bundan sonra da yaddan çıxarmayacaqlar;
- Təhlükəsizlik Şurasının toplantısı çağırılmış, vəziyyət müzakirə edilmişdir. Operativ vəziyyət imkan verən kimi jurnalistlər, səfirliklərin nümayəndələri həmin bölgəyə dəvət ediləcək, onlar vəziyyətlə tanış olacaq və yerində görəcəklər ki, bu təxribatı törədən kimdir;
- Düşmən təxribatı nəticəsində şəhid olan general-mayor Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdi. Yüksək dövlət ordeni ilə təltif edilmişdi. Bütün şəhidlərin intiqamı qısa zamanda artıqlaması ilə alınmışdır;
- Düşmənin onlarla hərbçisi məhv edilmiş, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edilmişdir. O cümlədən onların postu və bütün infrastrukturu yox edilmişdir;
- Bu əməliyyat, son günlər ərzində baş vermiş hərbi toqquşma - bizim növbəti şanlı qələbəmizdir;
- Son əməliyyatda Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. 2020-ci il, 12 iyul əməliyyatının Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürülmüş və işğalçılar o bölgələrdən qovulmuşdur;
- Aprel döyüşlərində olduğu kimi, bu dəfə də mənfur qonşu ən çirkin əməllərə əl atmışdır. Bizim kəndlərimizi atəşə tutmuş və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Mülki əhaliyə qarşı törədilən cinayətlər bir daha onu göstərir ki, Ermənistan faşist dövlətidir;



- Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərcmərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər;
- Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmişdir;
- Ermənistan tərəfindən törədilən hərbi təxribatın səbəbi Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu, heç kimə sirr deyil. Xaricdən maliyyələşən, xarici fondlardan maaş və təlimat alan, onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yolla zəbt edəndən sonra bir çox vədlər vermişdi;
- Ermənistanda demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə də, indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, ictimai fikri bu əsas məsələlərdən yayındırsın və bu təxribata şüurlu şəkildə əl atıldı;
- Operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, şəhərlər boşalır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır;
- Çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmiş, yardım istəmiş, hay-haray qaldırmışdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər;
- Təxribat törədiləndən dərhal sonra, iyul ayının 12-də günorta saatlarında Prezident müvafiq göstərişlər vermiş və beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat almış və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat vermişdirlər;
- Diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır, kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Ölkə başçısı tərəfindən bu məsələ dəfələrlə müxtəlif tədbirlərdə, Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə dilə gətirilmişdir. Bütün beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupunun həmsədrləri bunu bilirlər;
- XİN beynəlxalq təşkilatlarda Azərbaycana ünvanlanan əsassız ittihamlara cavab verməlidir, susmalı deyil. Ölkə başçısı bu barədə dəfələrlə öz mövqeyini bildirib, göstərişlər verib. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını müşahidə etmirik. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Xarici İşlər Nazirliyi nə ilə məşğul idi son günlərdə? Ayın 12-də hadisələr baş verəndən sonra XİN rəhbəri istisna olmaqla, dövlət başçısı və rəsmilər işinin başında idi;
- Dövlət başçısı bütün vacib məsələləri xalq ilə bölüşür, həm məsləhətləşir, həm öz fikirlərini, öz siyasətini deyir və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edir. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Azərbaycanda hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir;
- Bu günlərdə Azərbaycan tək qalmadı, qardaş Türkiyəyə Cümhuriyyəti və onun Prezidenti, Rəcəb Tayyib Ərdoğan Azərbaycanı dəstəklədi. Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük;
- Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib;
- Ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi;
- Ordumuzun düşmən hücumunu qəhrəmancasına dəf etdiyi gecə döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəldi. Ancaq əfsuslar olsun ki, sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil oldular. Onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdılar. Təbii ki, Daxili İşlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu.

# Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçiriləcək

***Dünyanı cənginə almış COVID-19 pandemiyasına qarşı mübarizə ilk gündən hər bir ölkəni regional və qlobal çərçivədə birliyə, həmrəyliyə xidmət edən tədbirlərin gücləndirilməsinə çağırış etdi. Daim birləşdirici mövqeyi ilə dünyanın diqqətində olan Azərbaycan bu müddətdə həm daxili, həm xarici həmrəyliyə xidmət edən təşəbbüslərini reallıqda təsdiqləməsi ilə diqqət çəkdi.***

Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və 120 ölkəni sıralarında birləşdirən Qoşulmama Hərəkatının videokonfrans şəklində Zirvə görüşləri keçirildi, dünyaya "COVID-19-a qarşı birlikdəyik" mesajı ünvanlandı. Bu kimi addımlar beynəlxalq səviyyədə Azərbaycana və Prezident İlham Əliyevə olan böyük inamın və etimadın göstəricisi kimi dəyərləndirildi. Cənab İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə Görüşündə bu reallığı diqqətə çatdırdı ki, yalnız qarşılıqlı dəstək, özünəqapanmama və birgə səylərlə COVID-19-a qalib gəlmək mümkündür.

Dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, "Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Kim bizə irad tuta bilərdi ki, bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik. Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq". Azərbaycan Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsinə nail olmaqla iki əks qütbün - Avropa İttifaqı ilə Qoşulmama Hərəkatının koronavirus pandemiyasına qarşı bir araya gətirilməsinə müvəffəq oldu.Cənab İlham Əliyevin fikirlərinə istinad etsək, Azərbaycan dünyanı birləşdirir. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir.

Vurğulamaq lazımdır ki, Azərbaycan dövləti bu çağırışı da etdi ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir.

BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin qurumun Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi bir daha beynəlxalq birlik tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu və yeri göz qabağındadır. Daim ədalət meyarını öndə saxlayan, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşan Azərbaycan qlobal məsələlərin həllində öz dəstəyini göstərməyi xarici siyasətinin prioritet istiqaməti kimi qəbul edib. Əsas məqsəd regionda və dünyada sabitliyin, təhlükəsizliyin, yüksək rifahın təmin edilməsidir.

Hər bir məsələdə seyrçi mövqedə dayanmağa üstünlük verən işğalçı dövlətin sağlamlığa böyük zərbə vuran bir xəstəliyə qarşı mübarizəyə də qoşulmaması dünya dövlətləri tərəfindən lazımi şəkildə dəyərləndirilməyəcəksə, bu, artıq Ermənistanın başına sığal çəkilməsinin növbəti təzahürü kimi qəbul oluna bilər. İşğalçı dövlət qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay edir. Bu günə qədər BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə məhəl qoymayan Ermənistana buna görə də "gözün üstə qaşın var" deyilməməsi təcavüzkar dövlətdə böyük arxayınlıq yaradır. Hansı ki, hazırda pandemiyanın ağır nəticələrini daha çox hiss edən ölkələrdən biri Ermənistan özüdür.

Azərbaycanın 130 ölkənin dəstəyini qazanan bu təşəbbüsü bir daha ölkəmizə olan münasibəti, etimadı ortaya qoyur. Azərbaycan daim böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında əməkdaşlıq əlaqələri qurur, bu münasibətləri yeni-yeni istiqamətlər üzrə inkişaf etdirir. Dünya dövlətləri tərəfindən BMT-nin Baş Katibinə ünvanlanan məktublarda da Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü dəstəklənir və vaxtında verilmiş, çox ehtiyac duyulan addım kimi dəyərləndirilir.

Göründüyü kimi, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu artırmaqdadır. Ölkəmiz öz təşəbbüsləri, praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına, qlobal koronavirus pandemiyası ilə mübarizədə bütün səylərin səfərbər olmasına töhfələrinin davamlılığı ilə diqqət çəkir. Dövlətimizin başçısının davamlı təşəbbüsləri və bu təşəbbüslərin reallıqda öz əksini tapması bunu bir daha təsdiqləyir.

# Geridə qalan fəaliyyət dövründə bizimlə əlaqə saxlayan hər vətəndaşa hesabat göndərilib

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən hüquqi, institusional və kadr islahatları 2020-ci ildə artıq geniş vüsət alaraq, intensiv formada davam etməkdədir.***

Bu islahalatlar nəticəsində ölkəmizin siyasi, iqtisadi, sosial, elm, təhsil, gənclər siyasəti, mədəniyyət, idman və ictimai həyatı kimi digər sahələrin də qlobal təcrübəyə və standartlara uyğunlaşması sürətlənməkdədir. Ölkəmizdə aparılan bu islahatların əhatə dairəsində Azərbaycan Respublikası Milli Məclisində olan kadr dəyişiklikləri və gəncləşmə siyasətini də qeyd etmək olar.

Milli Məclisin VI çağırış deputatlarının qarşısında olan vəzifə və öhdəliklər arasında, qanunvericilik sahəsində görüləcək işlərlə yanaşı, təmsil etdikləri ərazilərdə seçicilərlə işin təşkili ilk sırada yer alır. Elm və təhsilin inkişafı, gənclər siyasətinin təşkili, məşğulluğun, sosial rifahın yüksəldilməsi, sağlamlıq və vətəndaşların hüquqlarının qorunmasının təmin edilməsi üçün seçicilərimizin yanında olaraq, müraciət və təkliflər müvafiq qurumlar qarşısında qaldırılmaqdadır. Fəaliyyətimizdə əsas prioritet qarşılıqlı münasibətlərin formalaşdırılması, inkişafı və problemlərin həlli yolunda seçicilər üçün əlçatanlığın davamlılığının qorunmasıdır.

Yaz sessiyası müddəti dünyanın gözlənilmədən üzləşdiyi koronavirus pandemiyası dövrünə təsadüf etsə də, bu müddət ərzində qanunvericilik və seçicilərlə iş sahəsində fəaliyyət ənənəvi üsullardan fərqli olaraq yeni metodların tətbiqi ilə davam etdirilməkdədir. Dövlətçilik prinsiplərinə sadiq qalaraq, cənab Prezident İlham Əliyev tərəfindən aparılan genişmiqyaslı və çoxşaxəli islahatlar, yerli və xarici siyasətdə alınan qərarlar, göstərilən təşəbbüslər dəstəklənməyə davam edir. Bütün bu fəaliyyətlər barədə daima KİV və informasiya portallarında geniş təbliğat işləri aparılır. Artıq yekunlaşmış olan Milli Məclisin 2020-ci il Yaz sessiyası dövründə qanunvericiliyin inkişafı və təkmilləşdirilməsilə bağlı müvafiq komitələr üzrə intensiv fəaliyyət davam etdirilmişdir. Qanun layihələrinin təkmilləşdirilməsi və yeni təkliflər istiqamətində bir çox dəyişikliklər və təşəbbüslər göstərilməkdədir. Həmçinin yeni formalaşan heyətlərlə parlamentlərarası işçi qruplar qısa müddətdə fəaliyyətə keçərək, atılan ilkin addımlarla ölkələrarası qarşılıqlı münasibətlərin inkişafının davamlılığını təmin edir.

Fəaliyyət dövrü ilə bağlı tərtib olunmuş hesabatda Abşeron-Qobustan seçki dairəsinin Millət vəkili Şahin Seyidzadə tərəfindən Mart-İyul ayları ərzində keçirilən videogörüşlər, tədbirlər, layihələr, ictimai təşəbbüslər, parlament və komitələr üzrə fəaliyyəti haqqında xülasə məlumatlar yer alıb.

Geridə qoyduğumuz fəaliyyət dövrünə aid olan bu hesabat bizimlə ünsiyyətə keçmiş seçicilərimizə görülən işlərlə bağlı qısa xülasə ilə məlumat vermək məqsədi ilə hazırlanmışdır. Əsas məqsəd bizimlə ünsiyyətdə olan seçicilərimizlə hər zaman qoruyub saxlamağa çalışdığımız əlçatanlığı davamlı etmək, fəaliyyətimizin bütün istiqamətləri barədə məlumatlı saxlamaqdır. Təəssüf ki, bu dövr gözlənilmədən üzləşdiyimiz koronavirus pandmeiyası dövrünə təsadüf etmişdir amma bütün sahələrdə fəaliyyət dövrün yeni tələbləri olan onlayn formada davam etdirilməkdədir. Koronavirus pandemiyasının başladığı dönəmdə cənab Prezident İlham Əliyevin göstərişi ilə əlbəttə ki, ilk növbədə 65 yaşdan yuxarı şəxslərin sağlamlığının qorunması prioritet mövzu halına gəldi. Bununla bağlı Şahin Seyidzadə tərəfindən Abşeron və Qobustan rayonlarında "Könüllülər qərargahı" yaradılaraq 150-dən çox 65 yaşdan yuxarı şəxsə sosial xidmət göstərilmişdir.



Xüsusi karantin dövrü tətbiq edilən zaman Aprel ayı ərzində hər iki rayonda ümumilikdə 300-dən çox aztəminatlı ailəyə ərzaq yardımı edilmişdir.

Bununla yanaşı, mədəniyyət sahəsində də fəallıq göstərilərək, karantin dövründə "EvdəQalEvdəYarat" müsabiqəsi həyata keçirilmiş və 20-dən çox məktəbli bu onlayn layihədə iştirak edərək öz yaradıcılığ nümunələrini sərgiləmişdir. Qeyd etmək istərdim ki, bu müsabiqədə iştirak üçün Qobustan rayonunun məktəbliləri geniş təşəbbüs göstərərək qaliblər sırasında yer alıb.

Fəaliyyət dövrümüzdə seçicilərimizlə sıx ünsiyyətdə olmaq, əlaçatanlığı qorumaq və istər görülən işlər, istərsə də baş verən yeniliklər barədə daima məlumatda saxlamaq bizim üçün vacib və əhəmiyyətli istiqamətlərdən olmuşdur. Buna görə də dima istər sosial şəbəkələr, istərsə də ünsiyyət vasitəsi olaraq istifadə edilən platformalarda əhatə dairəmizin genişləndirilməsi üçün işlər aparılır. Hesabatın əhatə etdiyi dövrdə SMS və "WhatsApp" ilə 5330-dan çox təbrik, məlumatlandırma mesajları göndərilmişdir.

Əlbəttə ki, pandemiya dövrü nə qədər gözlənilməz olsa da ölkə olaraq vəziyyətdən müsbət nəticələrlə bütün istiqamətlərdə çıxış yolu əldə etdik. Məsələn burada ümumi fəaliyyətin və işin onlayn təşkilini də qeyd edə bilərik. Yaz sessiyasının fəaliyyət dövrü ərzində istər yerli səviyyədə, istərsə də beynəlxalq səviyyəli müxtəlif onlayn tədbir, görüş və forumlarda iştirak edilmişdir. Çap edilmişhesabatda bu tədbirlərin məqsədi, hansı qurumlar tərəfindən keçirildiyi barədə seçicilərimizə ətraflı məlumat verilmişdir.

Parlament fəaliyyəti çərçivəsində sessiya ərzində ümumilikdə 19 plenar (növbədənkənar iclaslar daxil olmaqla), 9 Elm və təhsil, 9 Gənclər və idman komitəsinin iclasında iştirak edərək qanunvericiliyin təkmilləşdirilməsi, yeni layihələrin hazırlanmasında fəallıq göstərilmişdir. Bu dövr ərzində görülən işlərin əksəriyyəti artıq



özünü doğrultmaqdadır. Bu qanunvericilik fəaliyyəti ilə yanaşı həmçinin, parlamentlərarası münasibətlərin inkişafetdirilməsi və daha da möhkəmləndirilməsi üçün müvafiq işlər görülmüşdür. Bununla yanaşı, Mavritaniya İslam Respublikasında olan 4 gəmiçinin ölkəmizə geri gətirilməsi üçün Azərbaycan-Mavritaniya parlamentlərarası işçi qrupunun rəhbəri olaraq Mərakeş Krallığı eyni zaman, Mavritaniya İslam Respublikasında olan səfirimizlə sıx ünsiyyət qurularaq, digər müvafiq qurumların dəstəyi ilə gəmiçilərimiz xüsusi çarter reysi ilə Naukşotdan İstanbula gətirilmişdir.

Seçicilərimizlə işin səmərəli təşkili və daimiliyinin qorunması üçün pandemiya elan edildiyi dövrdən etibarən onlayn videoqəbullar həyata keçirilməyə başlanılmışdır. Hesabat dövründə olan göstəricilərə əsasən Mart-İyul ayları ərzində ümumilikdə 85 nəfərin iştirakı ilə qəbul həyata keçirilib. Bu qəbullarda iştirak edən şəxslərdən 42-i Qobustan rayonunun sakinləri olmuşdur. Sözügedən dövr ərzində isə ümumilikdə ünvanımıza 109-u Qobustan olmaqla 201 müraciət daxil olmuşdur. Bu müraciətlərdən 82-i artıq icra olunub, 96-ı isə icraatdadır. Məlumat üçün qeyd etmək istərdim ki, müraciətlərin böyük əksəriyyəti infrastruktur v kommunal, hüquq, sosial təminat sahələrini əhatə etmişdir. Seçicilərimiz əsasən öz müraciətlərini şifafi formada "WhatsApp", zəng və yaxud sosial şəbəkələr vasitəsi ilə ünvanlamışdır. Həmçinin keçdiyimiz müddətdə sel daşqınları nəticəsində müəyyən miqdarda fəsadlar yaranmış Qobustan rayonunun Xilmilli və Poladlı kəndləri, həmçinin Qobustan şəhərində seçicilərimizin müraciəti əsasında yerində baxış keçirərək vəziyyətlə tanış olduq.

Bütün görülən işlər barədə istər seçicilərimizi, istərsə də ictimaiyyəti daima məlumatlı saxlamaq üçün hesbaat dövrü ərzində TV və internet kanalalrında 20-dən çox çıxış, KİV və informasiya portallarında 65-dən çox müsahibə, açıqlama və şərh verilmişdir. Həmçinin görülən işlərin əksəriyyəti ilə bağlı seçicilərimizlə daima ünsiyyətdə olduğumuz "Facebook", "Twitter" və "Linkedin" səhifələrimiz, "YouTube" və "Telegram" kanallarımız, həmçinin "WhatsApp" vasitəsi ilə vaxtaşırı məlumatlar yerləşdirilməkdədir.

Sözsüz ki, bütün bunların fonunda əsas məqsədimiz seçicilərimizdə düzgün gözlənti formalaşdırmaqdır.

50 saylı Abşeron-Qobustan seçki dairəsində yaşayan hər bir seçicimiz istənilən zaman bizə müraciət edə və problemini bildirə bilər. Bütün əlaqə vasitələrimiz daima seçicilərimiz üçün aktivliyini qorumaqdadır. Seçki dairəmizdə olan seçicilərlə ünsiyyət zamanı və yaxud müxtəlif istiqamətlərdə daxil olan müraciətlər dinlənilən zaman mümkün qədər çalışırıq ki, yanlış gözlənti formalaşmasın. Sözsüz ki, ünvanlanan bütün müraciətlər hər zaman 100%-lik dərəcə ilə müsbət həll olmur. Məhz buna görə də seçicilərimizlə ünsiyyətə keçən və yaxud videoqəbullarda müraciətləri dinlənilən zaman olduğu qədər çox məlumat alaraq məsələlər dərindən araşdırılır. Bəzi hallarda müsbət həlli mümkün olmayan mövzular olur ki, burada seçicilərimizə mümkün olan digər istiqamətləndirmələri verməyə çalışırıq.

# Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyalar milli həmrəyliy göstərdilər

- 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan-xalq, ön və arxa cəbhə birliyi, vəhdəti yaşanır. Siyasi baxışlarından, yaşından, statusundan, məşğuliyyət növündən, cinsindən asılı olmayaraq Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə etmişlər;
- Ölkə ərazisində fəaliyyət göstərən siyasi partiyalar da bu prosesdən geri qalmamışlar, praktiki olaraq Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq müxtəlif proqramı, platforması, fərqli məqsədi və məramı olan siyasi partiyalar iqtidar partiyası ilə olan fikir ayrılığını, məsələlərə müxtəlif yanaşma tərzini bir yana qoyaraq, həmrəylik nümayiş etdirmiş və Ali Baş Komandanın yanında olduqlarını bəyan etmişlər;
- Çoxdan arzuladığımız, digər ölkələrin siyasət mədəniyyətində həsəd və qibtə ilə izlədiyimiz an nəhayət yetişmişdir. Azərbaycanda da dünənin siyasi rəqibləri Vətən təhlükədə olduğu anda rəqabəti unudub, eyni səngərin əsgərləri kimi təhlükəni dəf etmək üçün bir yumruq kimi birləşmişlər;
- 43 partiya sədrinin imzaladığı Birgə Bəyanatda birmənalı şəkildə bildirilir: "Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik.";
- Bu birgə bəyanatdan sonra Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədov, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn ayrıca bəyanatlar verərək Vətənin düşmən təcavüzünə məruz qaldığı günlərdə Ali Baş Komandana və ordumuza dəstək olduqlarını demişlər.
- Siyasi partiyaların vəziyyəti düzgün dəyərləndirmələri və analiz etmələri, son hücumların məhz sərhəd zonasında baş verməsinin təsadüfi olmadığı, Ermənistanın və onun havadarlarının təcavüzkar niyyətinin yalnız Dağlıq Qarabağla məhdudlaşmadığını bildirmələri, Ermənistanın təcavüzünün təsdiq edilməsi baxımından əhəmiyyətlidir;
- Ordumuzun Tovuz istiqamətində düşmən hücumunun qarşısını alması, canlı qüvvələrini və texnikalarını məhv etməsi xalq tərəfindən coşqunluqla qarşılanmışdır. Xalq-ordu həmrəyliyi çərçivəsində döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəlmişdir. Ancaq əfsuslar olsun ki, hər zamankı kimi onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışmışlar. Buna baxmayaraq heç bir daxili və xarici siyasi güc, Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini şübhəyə ala bilməz. Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir, xalqını dinləyir, hər bir addımını onunla məsləhətləşir, gələcəyini onunla birlikdə planlaşdırır və həyata keçirir;
- Siyasi partiyalar milli həmrəylik nümayiş etdirərək Azərbaycan dövlətinin və Ali Baş Komandanın yanında olduqlarını birmənalı olaraq dilə gətirsələr də təəssüf ki, bəzi siyasi çevrələr bu təlatümlü günlərdə hadisələrə münasibət bildirməyərək kənardan müşahidə etməyə üstünlük vermişlər. Yəqin ki, onlar adətləri üzrə yenə də hansı isə neqativ məqamlar axtarmağa, özlərini fərqli göstərmək üçün tənqid etməyə, mənasız xırdalıqları qabartmağa üstünlük verəcəklər;
- Əlbəttə Azərbaycan xalqı da bu çətin günlərdə kimin kim olduğunu görür, hansı siyasi güclərin Vətən və dövlətçiliyi siyasi ambisiyadan üstün tutduğunu görür, onlara ən layiqli cavabını isə seçkilərdə verərək, layiq olduqları yeri göstərir.

# Azərbaycanda 43 siyasi partiyanın milli həmrəyliyə dair bəyanatı

İyul ayının 12-də Ermənistan hərbi qüvvələri dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın Silahlı Qüvvələrinin mövqelərinə qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətmişdir. Azərbaycan Ordusunun təxirəsalınmaz və adekvat tədbirləri nəticəsində erməni tərəfinin hücumunun qarşısı qətiyyətlə alınmış, düşmənə layiqli cavab verilmişdir. Erməni tərəfi ciddi itkilər verərək geri oturmağa məcbur edilmişdir. Erməni hərbçiləri iyul ayının 13-də və 14-də də döyüşləri davam etdirmiş, habelə Ermənistan-Azərbaycan sərhədlərinin digər istiqamətlərində təxribatlar törətməyə cəhdlər göstərmişlər. Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətli zərbələri nəticəsində düşmənin döyüş imkanları sarsıdılmış, böyük sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilmişdir. Düşmənə layiqli cavab verən Silahlı Qüvvələrimiz də təəssüf ki, itkilərə məruz qalmışdır. Lakin onların qisası yerdə qalmayıb. Şanlı hərbçilərimizin ölümünə bais olanlar həmişə olduğu kimi, ən ağır şəkildə cəzalarını alıblar. Allah şəhidlərimizə rəhmət etsin!

Qeyd etmək lazımdır ki, qanlı toqquşmalara yol verilməməsi naminə atəşkəs rejiminin tətbiq olunmasına baxmayaraq, erməni tərəfinin təmas xəttində və sərhəd zonalarında vaxtaşırı qanlı təxribatlar törətməsi pis adət halını almışdır. Erməni rəhbərliyi birinci dəfə deyildir ki, öz ölkəsi daxilində üzləşdiyi və həlli qarşısında aciz qaldığı ağır problemlərdən sərhəddə və ya təmas xəttində iyrənc hərbi təxribatlar törətməklə yaxa qurtarmağa çalışır. Ağır epidemioloji vəziyyətdən və sosial iqtisadi sıxıntılardan cana doymuş xalqın qəzəbindən yayınmaq üçün Paşinyanın diktatura rejiminin hərbi təxribatlara əl atması onun yürütdüyü siyasətin Ermənistanın əvvəlki xunta rejimlərinin yürütdüyü siyasətdən azacıq da olsa fərqlənmədiyinin göstəricisidir.

Azərbaycanın davamlı olaraq artan gücü, beynəlxalq nüfuzu, hərbi qüdrəti, diplomatiyamızın uğurları və bütün bunların məntiqi nəticəsi olaraq dünya birliyinin ermənilərin mənfur siyasətinin həqiqi sifətini tanıması, habelə Ermənistanın Dağlıq Qarabağın müstəqilliyinə bəslədiyi xülyaların puç olması xain və qisasçı erməni siyasi rejimini hərbi təxribatlar törətmək kimi təhlükəli və qanlı üsullara əl atmağa vadar edən digər səbəblərdir.

Növbəti erməni təxribatının münaqişə zonası olan Dağlıq Qarabağ bölgəsindən kənar sərhəd zonasında baş verməsi təsadüfi deyildir və onu törədənlərin məkrli və çirkin niyyətlərindən xəbər verir. İnsan tələfatları ilə müşayiət olunan, bölgədə gərginliyin, qarşıdurmanın və müharibə təhlükəsinin artmasını birbaşa hədəfə alan erməni təxribatlarının cilovlanması üçün dünya birliyinin, beynəlxalq təşkilatların, ələlxüsus vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun səsini ucaltmasının, təcavüzkarın yerində oturdulması üçün ən təsirli addımlar atmasının vaxtı çoxdan çatıb. Dünya nəhayət ki, erməni təxribatlarının və bu təxribatların arxasında duran Ermənistanın siyasi hakimiyyətinin artıq neçə illərdir bölgədə sülh və sabitliyə ən böyük təhlükə çevrildiyinin fərqində olmalıdır.

Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik.

**1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov**
**2. AĞ Partiya - Tural Abbaslı**
**3. Ana Vətən Partiyası - Fəzail Ağamalı**
**4. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli**
**5. Azadlıq Partiyası - Əhməd Orucov**
**6. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov**
**7. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu**
**8. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev**
**9. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan**
**10. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev**
**11. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev**
**12. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov**
**13. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə**
**14. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov**
**15. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov**
**16. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov**
**17. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə**
**18. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova**
**19. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev**
**20. Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə**
**21. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli**
**22. Birlik Partiyası - Xudadat Xudiyev**
**23. Böyük Azərbaycan Partiyası - Elşad Musayev**
**24. Böyük Quruluş Partiyası - Fazil Mustafa**
**25. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev**
**26. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev**
**27. Demokratik Azərbaycan Dünyası Partiyası - Əlisahib Hüseynov**
**28. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə**
**29. Ədalət Partiyası - İlyas İsmayılov**
**30. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu**
**31. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev**
**32. Qorqud Partiyası - Firudin Kərimov**
**33. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev**
**34. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev**
**35. Milli Konqres Partiyası - İxtiyar Şirinov**
**36. Milli Vəhdət Partiyası - Yunus Oğuz**
**37. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev**
**38. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov**
**39. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov**
**40. Vəhdət Partiyası - Tahir Kərimli**
**41. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev**
**42. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı**
**43. Yeni Zaman Partiyası - Musa Ağayev**

# Covid-19-un artmasını nəzərə alaraq dövlət lazımi tədbirlərə davam edir

- Covid-19-un artmasını nəzərə alaraq dövlət lazımi tədbirlərə davam edir. 800 çarpayılıq xəstəxana istifadəyə verildi. 1-1,5 ay ərzində 1300 çarpayılıq yeni modul tipli xəstəxana istifadəyə veriləcək;
- Modul tipli beş xəstəxana (Bakı-2, Sumqayıt-1, Gəncə-1, Abşeron-1) artıq fəaliyyətdədir. Daha beş modul tipli xəstəxana inşa olunacaq. Yəni, biz koronovirusla bağlı ən pessimist ssenariyə belə hazır olmalıyıq;
- Hazırda ölkənin 45 xəstəxanasında koronovirus xəstələri müalicə alırlar ki, bu xəstəxanaların 36-sı prezident İlham Əliyevin Sərəncamı ilə son dövrlərdə tikilib;
- Xəstəliyə yoluxmanın tempi yüksəkdir, amma vəziyyət nəzarət altındadır. Əhalisinin sayı Azərbaycan ilə müqayisə olunacaq, səhiyyə sistemləri nümunəvi hesab olunan bir sıra qabaqcıl ölkələrdə yoluxanların sayı 60-70 min, ölənlərin sayı isə on minlərlə ölçülür. Bu o deməkdir ki, heç bir ölkə koronavirusa yoluxmaqdan sığortalanmış deyil;
- Pandemiya dövründə xüsusi qaydalara riayət olunmalıdır. Hüquq mühafizə orqanları qaydalara əməl olunmasına ciddi nəzarət edirlər. Vətəndaşlarımız nizam-intizama ciddi riayət etsələr, pandemiyanı nəzarətdə saxlamağa və ona qalib gəlməyə müvəffəq olacağıq;
- ÜST ilə əməkdaşlıq davam edir, ÜST direktoru Azərbaycan tərəfindən təşkil olunmuş Zirvə görüşündə iştirak edib. Əməkdaşlığımız, məsləhətləşmələrimiz bundan sonra da davam edəcək;
- İqtisadiyyatımız ciddi əsaslar üzərində qurulub, pandemiya dövrünün çətinliklərinə baxmayaraq Azərbaycan iqtisadiyyatı 5 ayın yekunlarına görə cəmi 1,7 faiz tənəzzülə uğradı. Amma buna baxmayaraq, heç bir sosial layihəni təxirə salınmadı, ixtisar edilmədi. Əksinə, bu il büdcə xətti ilə reallaşan sosial layihələr keçən ilə nisbətdə daha təsirlidir;
- Bu dövrdə ön planda olanı insanların sağlamlığıdır və insanlarımızın sağlamlığı ilə müqayisədə iqtisadiyyat ikinci planda-dır. Bu il məcburi köçkünlər üçün rekord sayda bina tikiləcək və 7 mindən çox köçkün ailəsi yeni mənzillə təmin olunacaq. Şəhid ailələri üçün 1500 mənzil istifadəyə veriləcək. Qüsursuz xidmət edən zabitlərə 400 mənzilin verilməsi nəzərdə tutulur. 85 min ailə, yəni, 300 mindən çox insan ünvanlı sosial yardım alacaq;
- Neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq. Çünki biz son illər ərzində o qədər böyük iqtisadi-maliyyə potensialı yaratmışıq ki, istənilən böhranla bacara biləcəyik;
- Bu günə qədər 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Biz bu haqda heç məlumat da vermirdik. Çünki biz bunu piar üçün yox, sadəcə olaraq, ölkələrə həmrəylik borcu kimi edirdik. Bizim fəlsəfəmiz belədir. Mən əminəm ki, əgər kimsə yardım üçün müraciət edirsə, imkan daxilində o xahişlər təmin olunmalıdır. Çünki biz ancaq əməkdaşlıq, xeyirxahlıq, yardım və dəstək hesabına daha çox dost qazana bilərik;
- BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə səs verən yeganə ölkə Ermənistan idi. Dünya ictimaiyyəti bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə öz diqqətini artıracaq deyə Ermənistan etiraz etdi və yenidən təcrid edilmiş vəziyyətdə qaldı;
- Dağlıq Qarabağ münaqişəsində mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz. Çünki bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz tarixi ədalətə, beynəlxalq hüquqa əsaslanır;
- Ermənistan BMT-dən üstün deyil. Dövlətlərin özünümüdafiə hüququ var. Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparır. Şəhərlərimizin tarixi adlarını dəyişdirir, işğal edilmiş torpaqlarda kilsələr tikir. Yəni, sabah deyəcək ki, bu, erməni torpağıdır;
- Ermənistanın daxilində demokratiyanın, insan haqlarının pozulması halları geniş vüsət alır. Avropa təşkilatları isə bütün bunlara göz yumur. Bunun əsas səbəbi erməni lobbisi və onun maliyyə vəsaitidir. Erməni lobbisi Ermənistanı bütün təşkilatlarda müdafiə edir;
- Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar;
- Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir;
- İndiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurların rəhbərlik etdiklərini qeyd edir. Onlar özləri öz cinayətkarlarını, rüşvətxorlarını ifşa ediblər;
- 1990-cı illərin sonlarında Ermənistan parlamentində terror hadisəsi onların əsl mahiyyətini üzə çıxardı. Ermənistan terrorçu ölkədir və 2018-ci ilə qədər quldur, kriminal, rüşvətxor xuntanın hakimiyyəti Ermənistanı bu acınacaqlı vəziyyətə gətirib çıxardı;
- BMT-nin nizamnaməsinə görə Azərbaycanın özünümüdafiə hüququ var. Ermənistan BMT-dən üstün deyil əlbəttə. BMT, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, NATO kimi mötəbər beynəlxalq təşkilatların Azərbaycanın torpaq bütövlüyünü tanıyan qərarlar alması beynəlxalq aləmdə mövqeyimizi daha da gücləndirir;
- Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin növbətçi görüşlərindən savayı heç bir diplomatik səy göstərilməir. ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları İnstitutu işğal edilmiş Azərbaycan torpaqlarında qanunsuz məskunlaşmaya, ekoloji vəziyyətin korlanmasına səssiz qalır. Xunta rejiminin bölgəni narkotik maddələr və silah qaçaqmalçılığı bazasına çevirməsinə, keçirilmiş saxta seçkilərə münasibət bildirmirlər;
- Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyəndə Azərbaycan buna layiqincə cavab verdi. Paşinyanın bu ifadəsi Minsk qrupunun vasitəçiliyi ilə davam edən danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupu buna adekvat cavab vermədi.

# Mübariz İbrahimov kimi, Fərid Əhmədov kimi qəhrəman oğullarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq gənclərimizin ən böyük arzusudur



● Azərbaycan xalqının qəhrəmanlıq dastanı XXI əsrdə də davam edir. Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bu gün də bütün cəbhə boyu mərd oğullarımız mənfur düşmənlə üz-üzə durub və qəhrəmancasına mübarizə aparırlar;

● Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq;

● Xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi diqqət və qayğı öz uğurlu nəticələrini verir. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrimizin hərbi-texniki təchizat səviyyəsi, nizam-intizamı və döyüş ruhu kifayət qədər yüksəkdir. Ən mühüm məqamlardan biri bundan ibarətdir ki, bu gün Azərbaycan cəmiyyətində Silahlı Qüvvələrimizə böyük inam var. Silahlı Qüvvələrimizin hər bir vətəndaşın qürur mənbəyidir. Bu, olduqca vacib amildir. Çünki ordu cəmiyyətdə daxili özünə inamı, dövlətə etimadı gücləndirən əsas faktorlardan biridir;

● Bu gün Silahlı Qüvvələrimizin dünya reytinqində 50-ci pillədə qərarlaşır. Dağlıq Qarabağ münaqişəsinin həlli və ərazi bütövlüyümüzün bərpası Azərbaycan dövlətinin prioritet hədəfidir. Bu hədəfə nail olmaqda Silahlı Qüvvələrimizin əhəmiyyətli rolu oynayır. Bizim Silahlı Qüvvələrimizin müharibə vaxtı yaradılıb, Azərbaycan xalqı bununla fəxr edir. Silahlı Qüvvələrimizin döyüş ruhu yüksəkdir, ordumuz istənilən vaxt verilən əmri yerinə yetirməyə hazırdır;

● Mübariz İbrahimov kimi, Fərid Əhmədov kimi qəhrəman oğullarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq gənclərimizin ən böyük arzusudur. Müharibədə döyüş də var, şəhidlik də var. Ancaq Vətənə görə döyüşmək, torpaqlarımız üçün döyüşmək, ölümdən qorxmadan döyüşmək lazımdır. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, Mübariz İbrahimov, Fərid Əhmədov kimi oğullarımız şəhidliyi özləri seçmişdi. Vətən üçün seçmişdi, xidmətdə olan əsgərlərə, çağırışçılara vəsiyyət kimi seçmişdi. Onların şəhidliyi əsgərlərə nümunədir;

● Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun vəhdətini, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır;

● Amma məhz aprel döyüşləri sayəsində azad olunan Lələtəpə və Talış yüksəklikləri bu rayonlarda yaşayan insanlarımızı təhlükədən qurtardı. Həm də işğaldan azad etdiyimiz yüksəkliklərdən Dağlıq Qarabağa nəzarət etmək imkanlarımız genişləndi;

● Aprel döyüşləri ermənilərin məğlubedilməz ordu mifini sındırdı və bir daha göstərdi ki, Silahlı Qüvvələrimizin hərəkətə keçərsə, ermənilər darmadağın olacaqlar. Qısa bir zamanda, yəni 4 gün ərzində 300-dən çox erməni əsgəri məhv edildi, 500-dən çoxu ağır yaralandı, 30 tank, 15-dən çox artilleriya qurğusu və mühəndis istehkam qurğuları məhv edildi;

● 2018-ci ildə Şərur rayonunun işğal altında olan Günnüt kəndi və ətraf ərazilər uğurlu əməliyyat nəticəsində düşmən tapdağından azad edildi, 11 min hektar torpağa ordumuzun nəzarəti təmin olundu. Nəticədə, Əlahiddə Ümumqoşun Ordu düşmənin mühüm strateji yollarına nəzarəti ələ aldı, onun üzərində böyük üstünlük qazandı;

● 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirildi. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi;

● Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkildi, 60 kilometrdən artıq yararsız yollar bərpa edildi;

● Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri quruldu. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis istehkam tədbirləri görüldü, postlar arasında dayanıqlı rabitə əlaqəsi quruldu, yeni səngərlər qazıldı. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradıldı;

● Eyni zamanda bu hərbi üstünlük ordumuzun şəxsi heyətinin döyüş ruhunu daha da artırdı. Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan üçrəngli, şəhid qanı ilə boyanmış müqəddəs bayrağımız ucaldıldı;

● Əsgərlərimiz, gizirlərimiz, zabitlərimiz və generallarımız vətən uğrunda, birliyimiz və bərabərliyimiz uğrunda, Azərbaycan dövlətinin əbədi yaşaması uğrunda, gələcək nəsillər uğrunda gözlərini belə qırpmadan şəhidlik mərtəbəsinə yüksəlirlər. Bunun ən son nümunəsini 12 iyulda Azərbaycan - Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın atəşkəs müqaviləsini pozaraq hücuma keçməsi zamanı gördük;

● Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd edib. Halbuki bu, heç bir məntiqə sığmır. Azərbaycanın Ermənistanla dövlət sərhədində hər hansı bir hərbi məqsədi yoxdur;

● Ermənistan işğalçılıq siyasətini davam etdirir, ərazilərimizi zəbt etmək, mövqelərimizi ələ keçirmək istəyir. Amma Silahlı Qüvvələrimizin döyüş hazırlığı, mənəvi-psixoloji ruhu, bölmələrimizin yüksək hazırlığı sayəsində Ermənistan silahlı bölmələrinin hücumlarının qarşısı sərt şəkildə alındı. Düşmənə qarşı tətbiq olunan dəqiq və dağıdıcı gücə malik silahlar, həmçinin əsgər və zabitlərimizin qəhrəmanlığı onu itki verərək geri çəkilməyə məcbur etdi. Ordumuzun generalı döyüşlərdə əsgərlərimizin yanında idi, onlarla çiyin-çiyinə qarşı vuruşurdu;

● Düşmən 100 nəfərə yaxın canlı qüvvəsini və texnikasını itirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən xalqımız, ordumuz bu təlatümlü günlərdə onun yanında oldu, dəstəklədi. Ali Baş Komandan vətən uğrunda canlarını verən qəhrəmanlarımızı unutmur, onların, ailələrinin qayğısına qalır və onların qəhrəmanlığını yüksək qiymətləndirir;

● İyulun 15-də Prezident İlham Əliyev döyüş zamanı müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimovun anası Səməyə xanım və polkovnik İlqar Mirzəyevin oğlu Elvin ilə telefonla danışıb. Dövlətimizin başçısı şəhidlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı verib, onlara Allahdan rəhmət və səbir diləyib;

● Ali Baş Komandan qeyd edib ki, vətən uğrunda şəhid olan hərbi qulluqçularımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq, onların qisası alınıb və alınacaq, qanları yerdə qalmayacaq. Prezident İlham Əliyev general Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin ailəsinə ev verib;

● Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Fondun nümayəndələri Sumqayıt şəhərində general-mayor Polad Həşimovun və Bakı şəhərində polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Fondun nümayəndələri Ağstafa, Tovuz, Qazax, İsmayıllı, Biləsuvar və Masallı rayonlarında olaraq şəhid ailələrinə baş çəkəcəklər. Tovuz rayonu istiqamətlərdə şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğılarının Mehriban Əliyevanın tapşırığına əsasən daim Fondun nəzarətində olacağı bildirilib;

● Tovuz rayonunda atəşkəsin Ermənistan tərəfindən pozulması zamanı Silahlı Qüvvələrimizin bir daha öz üstünlüyünü təsdiq etdi. Bu əməliyyatın Silahlı Qüvvələrimizin şanlı tarixində öz yeri olacaq;

● Artıq dövlətlər 25-30 il bundan əvvəl olduğu kimi Ermənistanın və erməni diaspor təşkilatlarının yaydıqları informasiyalara etibar etmirlər. Eyni zamanda Azərbaycan diasporu da formalaşıb, dünyanın müxtəlif ölkələrində Azərbaycan haqq səsinin eşidilməsi üçün fəaliyyət göstərirlər;

● 14 iyulda Bakıda Silahlı Qüvvələrə və Ali Baş Komandana çoxminlik dəstək yürüşü həyata keçirilib. Xalq ordusunun və Ali Baş Komandanının yanında olduğunu, onu dəstəklədiyini ən yüksək səviyyədə göstərib;

● Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatla əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatına, yerli idarə, şöbə və bölmələrinə könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və lazımi kömək göstərmək istəyən vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər daxil olur;

● Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verən 55.130-dan çox vətəndaş Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatdan keçiblər və müraciətlər davam edir;

● Azərbaycanda Qadın Sahibkarlığı Assosiasiyasının (AQSİA) üzvləri Prezidentin çağırışına dəstək verib. Assosiasiya sıralarında birləşən yüzlərlə sahibkar xanım orduda xidmət göstərməyə hazır olduqların bildiriblər;

● Ölkənin 43 siyasi partiyası birgə, 4 siyasi partiyası isə ayrılıqda bəyanat verərək, erməni təxribatına qarşı mübarizədə Ali Baş Komandanın ətrafında birləşdiyini vurğulayıb;

● Qardaş Türkiyə cümhuriyyəti Azərbaycanı tək buraxmadı və təbii ki, Azərbaycana dəstək nümayiş etdirən ilk ölkə qardaş Türkiyə oldu. Ən yüksək səviyyədə Azərbaycanı dəstəklədiyini bildirdi. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı Azərbaycana qardaş dəstəyi olmaqla yanaşı, həm də düşmənlərə mesaj oldu. O çıxışı zamanı dost və qardaş Azərbaycana qarşı Ermənistan tərəfdən törədilən hücumu şiddətlə qınadığını dilə gətirib: "Bu gərginliyin Ermənistanın düşünülməmiş hücumundan sonra silahlı toqquşmaya çevrilməsindən narahatıq. Son hücum iki ölkə sərhədində ağır silahlarla həyata keçirilib. Bu hadisə Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə və ağır silahlarla törədilib. Bu hadisə hər hansı sərhəd pozuntusu deyil, birbaşa Azərbaycana qarşı məqsədli hücum olduğunu göstərməkdədir";

● Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlu bildirib ki, Ermənistan yeni toqquşma meydanı yaratmaqla, diqqəti işğal etdiyi ərazilərdən başqa istiqamətə yönəltmək istəyir. Ermənistanın bu günə kimi münaqişənin siyasi həll yoluna yaxın durmadığını deyən nazir bildirib ki, Ermənistanın etdiyi qəbuledilməzdir: "Ermənistan ağlını başına yığsın, Azərbaycan tək deyil. Biz Türkiyə Cümhuriyyəti və türk milləti olaraq bütün imkanlarımızla Azərbaycanın yanındayıq. Azərbaycanın ərazi bütövlüyünün qorunmasına əlimizdən gələn dəstəyi verəcəyik. Biz demişik ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı həll yolunu seçəcəksə, biz Azərbaycanın yanında olacağıq. Bu həssas bir cümlədir. Bunu bilərəkdən dedim";

● Türkiyənin Müdafiə naziri Hulusi Akar Azərbaycan-Ermənistan təmas xəttində davam edən gərginlikdən danışarkən, "İşğalçılığı davam etdirən Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin yanında olmağa, azərbaycanlı qardaşlarımıza dəstək verməyə davam edəcəyik" ifadələrini işlədib.

● Xaricdə yaşayan soydaşlarımız da Prezident ilham Əliyevin yanındadır və onu dəstəkləyir. Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu və Dünya Türk Birliyi təşkilatı, Latviyada yaşayan soydaşlarımız, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi, Ukraynadakı Türkiyənin icma nümayəndələri, Belorusda yaşayan Azərbaycanlılar da öz vətənlərinə dəstəklərini göstərib, erməni işğalını lənətləyiblər;

● Macarıstanda fəaliyyət göstərən "Qardaşlıq," Macarıstan-Azərbaycan Cəmiyyəti, Azərbaycan-Macarıstan Gənclər Birliyi və Azərbaycan Evinin birgə təşəbbüskarlığı ilə keçirilən mitinqdə "Erməni təcavüzünü dayandırın!", "Qarabağ - Azərbaycandır!", "Ermənistan beynəlxalq hüquqa etinasızlıq göstərir!", "Ali Baş Komandan, biz sizin əsgərlərinizik!" kimi şüarlar səsləndirilib.

# 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimi pozulub

2020-ci iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərinə hücum etməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır;

Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri otuzdurulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. Azərbaycan Ordusunun əks-tədbirləri adekvat xarakter daşıyıb, Ermənistanın təxribatına qətiyyətli cavab verilib;

Yayılmış videolardan da göründüyü kimi, Azərbaycan Ordusu Ermənistanın hərbi bölmələrinin mövqeyinə güclü zərbə endirib, nəticədə düşmənin texnikası və canlı qüvvəsi məhv edilib;

Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Ermənistan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür;

Bu gün Ermənistanda əhalinin hakimiyyətə etimadının itməsi ilə əlaqədar dərin böhran yaşanılır. Ermənistanın təcrübəsiz, populist baş naziri Nikol Paşinyan faktiki olaraq ölkədə diktatura qurmuşdur. Bütün siyasi rəqiblərini təqib edir, həbs edir. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahəsində saysız-hesabsız problemlər, insan hüquq və azadlıqlarının boğulması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi Paşinyan hakimiyyətini çox mürəkkəb duruma salıb;

Azərbaycanla sərhəddə təxribat Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və öz səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb;

Paşinyan hesab edir ki, xarici təhlükə qarşısında cəmiyyəti toparlamaq, müxalifəti tərk-silah etmək və hakimiyyətə qarşı formalaşan ciddi təhlükəni aradan qaldırmaq mümkün olacaq;

Hazırda Ermənistanda vəziyyət olduqca mürəkkəbdir, hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Paşinyanın belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyini düşünmək üçün heç bir əsas yoxdur;

N.Paşinyan hakimiyyəti itirməkdən qorxur. Yeganə məqsədi hansı vasitə ilə olursa- olsun hakimiyyətini qorumaqdır;

N.Paşinyanın demaqoqcasına vəd etdiyi "çiçəklənmə" reallaşmır;

N.Paşinyan xarici siyasətdə də uğursuzluğa düçar olmuşdur. Bütün dünya ictimaiyyəti martda Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində təşkil etdiyi "seçki" şousunu qəbul etməyərək Azərbaycanın ərazi bütövlünə dəstəyini təsdiq etdi;

Azərbaycanın dünyada nüfuzunun, çəkisinin günü-gündən daha da artması, beynəlxalq mövqelərinin daha da güclənməsi Ermənistanı qıcıqlandırır. Ölkəmizin diplomatik uğurları, dövlət başçımızın irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi Ermənistanı erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir;

Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münhen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoyub;

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin dünyanın 130-dan ölkəsi tərəfindən BMT Baş Assambleyasının COVİD-19 pandemiyasına qarşı videokonfrans vasitəsilə dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxan yeganə ölkə Ermənistan olmuşdur. Bu bir daha həm mənəvi cılızlığı, həm də Ermənistanda Azərbaycanafobiyanın hansı həddə çatdığını göstərir;

Ölkədaxili problemlərdən və xarici siyasətdə iflasdan diqqəti yayındırmaq məqsədilə Ermənistan belə bir avantüraya getmişdir;

Ermənistan tərəfindən sərhəddə törədilmiş təxribat onu göstərir ki, rəsmi Yerevan Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı deyil və məqsədi Azərbaycan ərazilərini işğalda saxlamaqdan ibarətdir;

Ermənistan uzun müddətdir ki, belə hərbi avantüralar yolu ilə üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə, Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışır;

Azərbaycanın Ermənistan istisna olmaqla bütün KTMT ölkələri ilə dostluq münasibətləri vardır. Əminik ki, KTMT ölkələri Ermənistanın məkrli niyyətini yaxşı başa düşürlər.

Dünyanın COVİD-19-a qarşı mübarizə apardığı şəraitdə Ermənistan tərəfindən bu hücum və təxribat əməlinin törədilməsi bir daha sübut edir ki, Ermənistanın BMT Baş katibinin COVİD-19 ilə əlaqədar qlobal atəşkəs təşəbbüsünü dəstəkləməsi riyakarlıqdan başqa bir şey deyildir;

Növbəti dəfə uğursuzluqla üzləşən Ermənistan hakimiyyəti indi də məsələnin mahiyyətini gizlətməyə, yalan məlumatlarla beynəlxalq və yerli ictimaiyyəti çaşdırmağa çalışır. Ermənistan hakimiyyətinin uydurmaları, ölənlər haqqında məlumatları gizlətməsi Ermənistan ictimaiyyətində ciddi narazılıq doğurub. Ermənistanda etiraz aksiyalarına başlanılıb, fəallar sosial şəbəkələrdə Ermənistan hakimiyyətini ciddi tənqid edirlər;

Ermənistanı hakimiyyətinin guya Azərbaycan hərbi bölmələrinin mövqeyini ələ keçirməsi, yeni yüksəkliklər əldə etməsi barədə iddialar yalan və dezinformasiyadan başqa bir şey deyil. Hətta bu ölkənin ictimaiyyəti, fəal sosial şəbəkə istifadəçiləri belə bu kimi iddiaları ironiya ilə qarşılayırlar;

İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndi;

Bu, bir tərəfdən Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Lakin indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığına görə, vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar;

Arzuolunmaz xaotik təşəbbüslər yalnız düşmənlərimizi sevindirə, ölkəmiz, silahlı qüvvələrimiz haqqında uydurmaların daha da genişləndirməyə imkan yarada bilər;

Buna görə də bəzi sosial şəbəkə istifadəçilərinin silaha sarılmaq və cəbhə bölgəsinə getmək çağırışları, ayrı-ayrı şəxslərin cəbhə xəttinə yürüş təşkil etmək cəhdləri yolverilməz və qəbulolunmazdır;

Azərbaycan silahlı qüvvələri operativ vəziyyətə nəzarət edir. Ermənistanın təxribatlarına sərt formada cavab verilir və veriləcəkdir. Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və sərhəddə törətdiyi təxribat əməllərini kəskin şəkildə pisləməlidir.

İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndi. Bu, bir tərəfdən Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi.

Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza isə şəfa diləyirik!

# Növbəti dəfə uğursuzluqla üzləşən Ermənistan hakimiyyəti indi də məsələnin mahiyyətini gizlətməyə çalışır

- İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribata əl ataraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirməyə, artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib;

- Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri otuzdurulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. Azərbaycan Ordusunun əks-tədbirləri adekvat xarakter daşıyıb, Ermənistanın təxribatna qətiyyətli cavab verilib;

- Yayılmış videolardan da göründüyü kimi, Azərbaycan Ordusu Ermənistanın hərbi bölmələrinin mövqeyinə güclü zərbə endirib, nəticədə düşmənin texnikası və canlı qüvvəsi məhv edilib;

- Azərbaycanın beynəlxalq mövqelərinin daha da güclənməsi, ölkəmizin diplomatik uğurları, dövlət başçımızın irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən ölkəmizin sədrlik etdiyi Qoşulma Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir;

- Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münhen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoyub;

- Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Ermənistan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür;

- Bu gün Ermənistanda əhalinin hakimiyyətə etimadının itməsi ilə əlaqədar dərin böhran yaşanılır. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahəsində saysız-hesabsız problemlər, insan hüquq və azadlıqlarının boğulması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi Paşinyan hakimiyyətini çox mürəkkəb duruma salıb;

- Azərbaycanla sərhəddə təxribat Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və öz səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb;

- Paşinyan hesab edir ki, xarici təhlükə qarşısında cəmiyyəti toparlamaq, müxalifəti tərk-silah etmək və hakimiyyətə qarşı formalaşan ciddi təhlükəni aradan qaldırmaq mümkün olacaq;

- Hazırda Ermənistanda vəziyyət olduqca mürəkkəbdir, hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Paşinyanın belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyini düşünmək üçün heç bir əsas yoxdur;

- Növbəti dəfə uğursuzluqla üzləşən Ermənistan hakimiyyəti indi də məsələnin mahiyyətini gizlətməyə, yalan məlumatlarla beynəlxalq və yerli ictimaiyyəti çaşdırmağa çalışır. Ermənistan hakimiyyətinin uydurmaları, ölənlər haqqında məlumatları gizlətməsi Ermənistan ictimaiyyətində ciddi narazılıq doğurub. Ermənistanda etiraz aksiyalarına başlanılıb, fəallar sosial şəbəkələrdə Ermənistan hakimiyyətini ciddi tənqid edirlər;

- Ermənistanı hakimiyyətinin guya Azərbaycan hərbi bölmələrinin mövqeyini ələ keçirməsi, yeni yüksəkliklər əldə etməsi barədə iddialar yalan və dezinformasiyadan başqa bir şey deyil. Hətta bu ölkənin ictimaiyyəti, fəal sosial şəbəkə istifadəçiləri belə bu kimi iddiaları ironiya ilə qarşılayırlar;

- İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndi;

- Bu, bir tərəfdən Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Lakin indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığına görə, vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar;

- Arzuolunmaz xaotik təşəbbüslər yalnız düşmənlərimizi sevindirə, ölkəmiz, silahlı qüvvələrimiz haqqında uydurmaların daha da genişləndirməyə imkan yarada bilər;

- Buna görə də bəzi sosial şəbəkə istifadəçilərinin silaha sarılmaq və cəbhə bölgəsinə getmək çağırışları, ayrı-ayrı şəxslərin cəbhə xəttinə yürüş təşkil etmək cəhdləri yolverilməz və qəbulolunmazdır;

- Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndi. Bu, bir tərəfdən Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi.

Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza isə şəfa diləyirik!

# Tibbi savad, bacarıq və məsuliyyətin nəticəsi



*Sovetxan Muradəliyev, İsmayıllı rayonu, Quşencə kəndi*

May ayının 26-da qonşuda hərarətli xəstəyə maska və əlcəkdə ilk tibbi yardım göstərəndən sonra, şübhədə qaldığımdan rayon mərkəzinə, təcili yardıma məlumat verdim. Əbəs yerə şübhələnməmişdim. Xəstədə və ailə üzvlərində COVID-19 virusu aşkarlandı. Xəstələr Ağdaş Pandemiya Xəstəxanasına yerləşdirildilər. Onlarla təmasda olduğumdan mən də analiz olundum. Nəticə pozitiv oldu. Həmin gün saat 23:30-da Qobustan Pandemiya Xəstəxanasına yerləşdirildim.

Heç bir şikayətim, eləcə də məndə koronavirus xəstəliyinin əlamətləri yox idi. Amma palatada tək və çox narahat idim. Danışmağa, dərd bölüşməyə bir kimsə yox idi. Birdən 1961-1963-cü illərdə mənimlə bərabər Şamaxı Tibb Texnikumunda oxumuş Şamaxı rayonunun Sündi kənd sakini Mayor Niftəliyevinin Qobustan rayonunda yaşaması və rayonun mərkəzi xəstəxanasında işləməsi yadıma düşdü. Səhər açılanda dostumla görüşdüm və bu qəribə xəstəliyə düçar olduğumu bildirdim. Evdə qalmaqla digər ailə üzvlərini də yoluxdura bilərdim. Çarə, çıxış yolu isə qapalı şəraitdə qalmaqdır.

Mayor səbirli olmağımı tapşırdı və mümkün olan köməkliyi edəcəyinə söz verdi. Telefonla müzakirələr apardı. Burada çalışan bacarıqlı tibb işçiləri barədə xeyli xoş söz danışdı. Haqqımda baş həkimə söyləyəcəyini bildirdi.

Yaş öz işini görür. Bu xəstəlik qocaları və xroniki xəstəliyi olanları tez təslim edə bilir. Odur ki, mübariz olmalı, psixoloji durumu sabit saxlamalı, kalorili, meyvə və meyvə şirəsi qidalar qəbul etməli, yuxuya və gigiyenik qaydalara ən azından 15-20 gün ciddi əməl olunmalıdır.

Bir neçə saatdan sonra xəstəxananın baş həkimi Emin Hüseynli və həkimlər briqadası gülər üzlə palataya daxil oldular. Müayinə başa çatdıqdan sonra təyinat və məsləhətlərin icrasına başlanıldı. Müalicə və dostumun ürək-dirək verən mütəmadi telefon əlaqələri məndə sağlam həyata qayıtmağa mübarizə əzmi formalaşdırdı.

Xəstəxana kollektivinin bizə görə yaşadıqları əzablı günləri yada salanda bu insanların fədakarlığına alqışlamalı oluram. Bu məqamda cənab Prezidentimizin "Həkimlərimizə eşq olsun!" - deməsi onların fədakarlığına verilən ən ali qiymətdir. Biz vətəndaşlar pandemiyaya qarşı mübarizədə cənab Prezidentin çalışmalarına yüksək dəyər verməli, olunan tövsiyələri, edilən xəbərdarlıqları tələb olunduğu şəkildə yerinə yetirməliyik.

Göstərilən diqqətə görə hamımız cənab Prezidentə, onun ailə üzvlərinə möhkəm can sağlığı arzulayırıq. Allah Prezidentimizi qorusun!

Sonda mənə bəlli oldu ki, 78 yaşlı, 56 illik dostum Mayor Niftəliyevin hələ də işdə qalıb işləməsi onun tibbi savadı, bacarıq və məsuliyyətinin nəticəsidir.

Odur ki, qəzet vasitəsi ilə ürək sözlərimi, dərin minnətdarlığımı Qobustan Pandemiya Xəstəxanasının baş həkimi Emin Hüseynliyə, xəstəxanada çalışan bütün tibb işçilərinə çatdırıram. Hər birinizə can sağlığı, uzun ömür, yeni-yeni uğur və nailiyyətlər arzulayıram.

# Kənddə yanğın olmasın deyə...

İsti yay günlərində kəndlərdə təsərrüfat işlərinin ən qızğın dövrüdür. Min bir zəhmətlə hasilə gətirilən taxılın, meyvə-tərəvəz məhsullarının, pambığın, üzümün toplanması, mal-qara üçün qışa yem ehtiyatı yaradılması məhz bu dövrə təsadüf etdiyindənyayda kənd əməkçilərinin qayğıları artır. Onlar əziyyətlə yetişdirdikləri məhsulu tez və itkisiz toplamağa çalışırlar.

Lakin təkcə bol məhsul yetişdirmək şərt deyil, onu qorumaq, ondan səmərəli istifadə etmək də çox vacibdir.Təəssüf ki, bəzən adi bir səhlənkarlıqdan, ehtiyatsızlıqdan, yanğın təhlükəsizliyi qaydalarına əməl etmədiyindən kəndçinin aylarla çəkdiyi zəhmət bir göz qırpımında yanıb külə dönür, puç olur.

Yayda günəşin istisi adamı yandırıb yaxanda, yerdən torpağın, göydən günəşin hərarəti insanı təng-nəfəs edəndə kəndli qan-tər içində taxıl, ot yığır, meyvə- tərəvəz məhsullarını toplayır. Hələ bundan sonra neçə-neçə prosesi yerinə yetirməli olur. Tonlarla məhsulu maşına yükləyib həyətə gətirməyin, onu harasa yığmağın, yerbəyer etməyin, yaxud satmağın öz çətinlikləri, əzab-əziyyəti var. Təəssüf ki, kənd zəhmətkeşlərinin bəziləri belə əzab-əziyyətlə topladıqları məhsulun hara yığılması, qorunub saxlanılması barədə ciddi düşünmür, Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşlarının məhsulun yanğından qorunması barədə tövsiyələrinə məhəl qoymurlar. Xidmət inspektorlarının yanğın təhlükəsizliyi tələblərinə baxmayaraq onlar çox vaxt məhsulu, xüsusən də otu yağış isladıb çürütməsin deyə tövlənin, yaxud evin çardağına, üstündən elektrik xətti keçənəl damına yığıb saxlamağa çalışırlar. Ancaq onlar otu evin çardağına, tövlənin üstünə yığanda sobanın tüstü borusundan çıxan qığılcımdan, elektrik xətində baş verən qısaqapanmadan yanğın törənəcəyi barədə düşünmürlər.

Təbii ki, bəzən, xüsusən də qışda kənddə işıqlar sönür. Kimsə tövləyə, əl damına baş çəkərkən oranı işıqlandırmaq məqsədilə kibritdən, çıraqdan istifadə etmək istəyir. Unudur ki, kibritdən çıxan qığılcımdan, bəzən də çırağın özündən də yanğın törənir.

Kənd yaşayış məntəqələrində şəhərdən fərqli olaraq yanğınla mübarizə işinin təşkili öz xüsusiyyətlərinə görə fərqlənir və yüksək peşəkarlıq tələb edir. Şəhərdə baş vermiş yanğınları söndürmək üçün texniki vasitələr və canlı qüvvə sarıdan imkanlar geniş olduğu halda, kənddə bu imkanlar nisbətən məhduddur. Belə ki, baş vermiş yanğının söndürülməsi üçün əlavə köməyə ehtiyac yarandıqda, şəhər yerində bu məsələ qısa müddətdə öz həllini tapır. Kənd yaşayış məntəqələrində isə qonşu rayonlara müraciət edilir. Yolların vəziyyətini, məsafənin uzaqlığını nəzərə alsaq, bu köməyin necə olacağı barədə təsəvvür yaranır.

Kənd yaşayış məntəqələrində yanğın baş verdikdə onun sürətlə inkişaf etməsinə səbəb evlərin, tövlələrin tezalışan materiallardan tikilməsi, hava axınının güclü olması, su təchizatının kifayət qədər olmaması və xüsusilə payız-qış aylarında avtomobillərin hərəkətini çətinləşdirən palçıqlı torpaq yolların olmasıdır.Ona görə də kənd təsərrüfatında çalışan hər bir təsərrüfatçı, Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən verilən tövsiyələri icra etməli, öz əmlakı ilə yanaşı başqalarının da zəhmətinin hədər getməsinə yol verməməlidir.

Taxıl və mal-qara üçün silos, senaj, quru ot tədarükünün artırılması əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasında önəmli rol oynadığına görə bu sahələrin, bütövlükdə kənd təsərrüfatının inkişafı ölkə başçısı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Ona görə də dənli və texniki bitkilərin tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində yanğın təhlükəsizliyi daim diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Yanğınların statistikası göstərir ki, taxıl yığımı başa çatdıqdan sonra təbii gübrələmə, torpağı yeni əkinə hazırlamaq adı ilə bəzi sahibkarlar biçilmiş taxıl sahələrini yandırırlar. Bu yanğınlar isə torpağa ciddi ziyan vurmaqla, ekologiyanı korlamaqla, torpaqda olan mikroorqanizmləri məhv etməklə, münbitliyi azaltmaqla yanaşı, bəzən də biçilməmiş taxıl sahələrinin, meşələrin yanıb sıradan çıxmasına səbəb olur. Odur ki, biçindən sonra sahələrin yandırılması qadağandır və bu əməli törədən şəxslər cinayət məsuliyyəti daşıyırlar.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin - təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır. Onlar biçin zamanı olduğu kimi biçindən sonra da yanğın təhlükəsizliyi qaydalarına əməl etməlidirlər. Hər bir kənddə yaşayan təsərrüfat sahibi bilməlidir ki, taxılın yetişdiyi və yığımı, həmçinin biçindən sonra şumlamaya qədər olan dövrdə əkin sahələrinə 200 metrdən yaxın olan yerdə tonqal, ocaq qalamaq təhlükəlidir. Meşələrə və dəmir yolu xətlərinə yaxın yerlərdə taxıl zəmilərinin ətrafı ən azı 6 metr enində şumlanmalıdır.

Həyətlərdə və heyvandarlıq komplekslərində ot, küləş tayaları vurularkən evlərdən və digər tikililərdən aralıda qurulmalı, ara məsafələri gözlənilməli, eyni zamanda hər tayanın arası şumlanmalıdır ki, bir tayada yanğın baş verdikdə digərinə keçməsin.

Mal-qaranın saxlanıldığı tövlələr əksər hallarda tez yanan materiallardan tikilir. Bu tövlələrin daxilində arakəsmələr olmadığından yanğının tez bir anda yayılma ehtimalı da böyükdür. Çardaq çatılarına malik olan aşağıdan suvaqla və çardaqda bu çatıların müvafiq izolyasiyası ilə qorunan tövlələrdə yanğınlar bir qədər gec yayılır. Odur ki, mal-qara saxlanılan tövlələrdə yanğınları söndürmək üçün yanar konstruksiyalarda, çatlarda taxtalarda azı 2-3 metr enində aralıqlar düzəltmək məsləhət görülür.

Tövlələr tikilərkən yaşayış evləri ilə lazımi qədər ara məsafəsi saxlanmalıdır. Tövlələri işıqlandırmaq məqsədilə kibritdən, çıraqdan istifadə etmək təhlükəlidir. Ot, küləş preslərini tövlələrin, evlərin çardaq hissəsinə yığmaq qəti qadağandır.Meyvə-tərəvəz, üzüm sahələri quru otlardan təmizlənməlidir. Pambıq emalı müəssisələrində yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır. Hər kəs bilməlidir ki, əhalinin heyvandarlıq məhsullar ilə təminatında əsas rol oynayan qaba və şirəli yemləri qorumaq lazımdır. Bunun üçün isə sadəcə DYNX-nin əməkdaşlarının göstərişlərinə əməl etmək vacibdir.

# Azərbaycan ordusu düşmənin növbəti təxribatına qarşı layiqli cavab verib

- Azərbaycan ordusu iyulun 12-si Ermənistanın Tovuz rayonu ilə həmsərhəd Tavuş rayonundan törədilən növbəti təxribata qarşı layiqli cavab vermişdir. Rəsmi Yerevan Ermənistan tərəfinin itkilərini gizlətsə də, Feysbuk səhifələrində Ermənistan vətəndaşlarının yazışmalarından da aydın göründüyü kimi qarşı tərəf canlı qüvvə ilə 30 nəfərdən artıq tələfat verərək geri çəkilmişdir;
- Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən yayılmış videolarda cavab olaraq düşmən mövqelərinə güclü zərbə endirilməsi ilə qarşı tərəfin xeyli sayda canlı qüvvəsi və texnikası məhv edildiyi görünür;
- Ermənistan tərəfinin sərhəddə atəşkəs rejimini kobud şəkildə pozması Ermənistan hakimiyyətinin pandemiyaya qarşı mübarizəsinin uğursuz olması səbəbilə daxili narazılığın artdığı dövrə təsadüf edir. Paşinyan hökuməti bununla müxalifləri susdurmağa çalışır;
- Paşinyan hökuməti Azərbaycan ilə sərhəddə atəşkəsi pozaraq son zamanlarda ona qarşı revanş alan siyasi müxalifətin fəaliyyətini məhdudlaşdırmağa, Azərbaycanın düşmən obrazını qabardaraq erməni xalqını həmrəyliyə dəvət etməyə səy göstərir;
- Ermənistanın atəşkəsi kobud şəkildə pozmasını ATƏT Minsk qrupu həmsədr ölkələri, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qınanmayıb. ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kaspirşik də məsələyə münasibət bildirməyib;
- Ermənistan tərəfi dünya ictimaiyyətinin COVİD-19 pandemiyası dövrü bütün münaqişələrin dayandırılması çağırışına məhəl qoymayaraq beynəlxalq səviyyədə centlemen sayağı razılığı kobudcasına pozmuşdur;
- Şəhidlərimizin dəfn olunduğu rayonlarda hərbçilərimizin nəşi yerli əhali tərəfindən böyük hörmət və sevgi ilə qarşılanmışdır. İnsanlar mənfur düşmənə qarşı intiqam, torpaqlarımızın azad olunması üçün hərbi əməliyyatlara tam dəstək ifadə edirlər. Ölkədə bu günlər əsl ordu-xalq vəhdəti nümayiş etdirilir;
- Prezident İlham Əliyev cəbhə xəttindəki operativ məlumatla tanış olan kimi Təhlükəsizlik Şurasının iclasını keçirmişdir. Azərbaycan tərəfi nümayiş etdirir ki, torpaqların işğalı və hansı isə xarici hərbi qüvvənin öz ərazisində mövcudluğu ilə barışmayacaq;
- Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya kütləvi informasiya vasitələrinə verdiyi müsahibədə bildirmişdir ki, Azərbaycan danışıqlar aparmaq xatirinə danışıqlar aparmayacaqdır. Danışıqların nəticəsi olaraq Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini geri qaytarmalıdır. Əks halda geniş miqyaslı hərbi əməliyyatların olması qaçınılmazdır;
- Qardaş Türkiyə Cümhuriyyəti də Ermənistan atəşkəsi pozmasını şiddətlə qınamış və hər zamankı kimi Azərbaycanın yanında yer aldığını bildirmişdir. Türkiyə xarici işlər naziriyi təxribatdan dərhal sonra 12 iyul, No: 149 saylı bəyanatı ilə Ermənistan tərəfinin təxribatını kəskin pisləmişdir;
- İran İslam Respublikası Xarici işlər nazirliyinin mətbuat katibi Seyyid Abbas Musəvi atəşkəsin pozulması zamanı Azərbaycan tərəfinin verdiyi itkilərlə bağlı təəssüfünü bildirmiş və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasında İran tərəfinin vasitəçiliyə hazır olduğunu bir daha təkrarlamışdır.

Qobustan rayon İcra Hakimiyyətinin
Başçısı cənab Adil Məmmədova

Hörmətli Adil müəllim, ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz dünyanın inkişaf etmiş ölkələri sırasındadır.

Hörmətli Adil müəllim, biz birinci qrur əlil və qırx ildən artıq yataq xəstəsi olan dörd bacı ikinci qrup əlil olan yeganə qardaşımız Oktayın himayəsində yaşayırıq. Biz dörd nəfər xəstə insan və qardaşımızn üç ailəsi bir evdə yaşadığımız üçün çətinlik çəkirdik. Bu günlərdə bizim üçün yaşayış evinin tikilməsi üçün Sizə müraciət etdik. Çox sağ olun ki, müraciətimizə müsbət cavab verdiniz. Hörmətli başçı, bu çətin, böhranlı günlərdə qısa vaxtda daxili imkanlar hesabına biz əlillər və imkansızlar üçün Sizin rəhbərliyinizlə üç otaqlı, müasir tələblərə cavab verən yaraşıqlı ev tikildi. Həmin evdə biz əlillərin rahat istifadəsi üçün lazımi şərait yaradıldığı üçün Sizə öz minnətdarlığımızı bildiririk. Cənab başçı, bu ağır günlərdə bizə və rayonun bizim kimi imkansız ailələrinə göstərdiyiniz maddi və mənəvi dəstəyə görə Sizə çox sağ ol deyirik.

Hörmətli başçı, bütün bunlar Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi, Möhtərəm Prezidentimizin xalqımıza göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu həmçinin kadrların düzgün təyinatının nəticəsi, Cənab Prezidentin Sizin qarşınıza qoyduğu tapşırıqları yerinə yetirmək üçün işə vicdanlı və məsuliyyətli münasibətin nəticəsidir. Bu şərəfli yolda Sizə uğurlar olsun deyir, işlərinizdə müvəffəqiyyət arzulayırıq.

Hörmətli başçı, doğma Azərbaycanımızın daha da inkişafı üçün müdrik rəhbər, Möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında daha da sıx birləşməklə yeni-yeni zirvələr fəth etməyi Allahdan arzu edirik.

Hörmətlə, Qobustan rayon Nabur kənd sakinləri:

| | | | |
|---|---|---|---|
| 1. | [signature] | Z.M. Kərimova | I qrur əlil |
| 2. | [signature] | S.M. Kərimova | I qrur əlil |
| 3. | [signature] | F.M. Kərimova | I qrur əlil |
| 4. | [signature] | U.M. Kərimova | I qrur əlil |
| 5. | [signature] | O.M. Kərimov | II qrur əlil |

09 iyun 2020-ci il

Qobustan rayonu Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi
Daxilolma № 1-7 ...

# Gənclər və İdman İdarəsi iyul ayında









2020-ci ilin mart ayından davam edən koronavirus pandemiyası ilə əlaqədar Gənclər və İdman İdarəsi internet resurslarından istifadə edərək uşaqlar və gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların bilik və bacarıqlarını daha inkişaf etdirilməsi məqsədilə müxtəlif mövzularda inşa yazı, foto, rəsm, musiqi və digər onlayn müsabiqələr, həm də pandemiya ilə əlaqədar əhalinin maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirmişlər.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən yerlərdə karantin qaydalarına əməl etməyən vətəndaşlara qarşı ictimai qınaq kampaniyasının keçirilməsi məqsədilə müxtəlif maarifləndirici tədbirlər davam etdirilir. "Karantin qaydalarına biganə qalan vətəndaşlar xalqın genefonduna zərbə vururlar" şüarı altında maarifləndirici təbliğat aksiyası keçirilmişdir. Aksiya çərçivəsində idarə əməkdaşları tərəfindən şəhərin müxtəlif yerlərində vətəndaşlara tibbi maskalar paylanılıb, maarifləndirici söhbətlər aparılıb.




29 iyun - 05 iyul 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında "Biz birlikdə güclüyük" mövzusunda onlayn inşa yazı müsabiqəsi keçirilmişdir. Bu müsabiqədə Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin şagirdləri və Qobustan şəhər Mədəniyyət evinin dərnək üzvləri fəal iştirak etmişlər. İştirakçılar yazı işlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirus pandemiyası ilə əlaqədar "Biz birlikdə güclüyük" çağırışını hər birimiz üçün örnək olduğunu qeyd edərək, öz fikir və təəssüratlarını bildirmişlər.

Münsiflər heyətinin qərarına əsasən Qobustan şəhər Mədəniyyət evinin "Bədii qiraət" dərnəyinin üzvü Fərid Kərimli I yerə, Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin şagirdləri Abdullayeva Fidan və Ağaverdiyev Çingizxan II və III yerlərə layiq görülmüşdür.

06-12 iyul 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında onlayn rəsm müsabiqəsi keçirilmişdir. R.Behbudov adına Qobustan şəhər İncəsənət məktəbinin şagirdləri Mirkamil Hüseynzadə, Züleyxa Başatova, Firuzə Mirzəliyeva və Rəna Adıgözəllinin, Təklə kənd tam orta məktəbinin şagirdləri Qızbəs Qədirova və Orxan Məhəmmədlinin rəsm işləri Münsiflər heyəti tərəfindən dana yüksək qiymətləndirilmişdir.

20-26 iyul 2020-ci il tarixlərində uşaqlar və gənclər arasında əl işlərindən ibarət "Bacarıqlı əllər" müsabiqəsi keçirilmişdir. Qobustan şəhər Mədəniyyət evinin moda dizayn dərnəyinin müəllimi Svetlana Əliyarova, toxuculuq və xalçaçılıq dərnəyinin üzvləri Əminə Şahverdiyeva və Türkan Novruzovanın əl işləri daha yüksək sənətkarlıqla yerinə yetirilmişdir.

27 - 31 iyul tarixlərində vətənpərvərlik mahnı müsabiqəsi keçirilmişdir. R.Behbudov adına Uşaq İncəsənət məktəbinin şagirdlərindən İlahə Mürsəliyeva, Nihad Şahavatov, Aysun Ağayeva, Mehriban Təhməzovanın və eləcə də Türkan Nəcəfova vətənpərvərliik ruhunda mahnılar səsləndirərək Vətənimizin qüdrətini, birliyini, bölünməzliyini ifadə etmişlər.

Müsabiqələrdə fərqlənmiş bütün iştirakçılar karantin rejimi gözlənilməklə Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları ilə mükafatlandırılmışlar.



### *Nəvəm Röyala bir yaşı münasibəti ilə hədiyyə olaraq*

Ay ürəyimin parası,
Ay gözlərimin qarası,
Ay həyatımın mənası
Balaca Röyalım mənim.

Həyatdır hər bir gülüşü
O, tubbur-tubbur yerişi,
Aləm,məzə hər bir işi,
Dəcəldi Röyalım mənim.

Bax,oynayır hər havaya,
Fərəhdi nənə,babaya.
Küsdürsək ,düşdük davaya
Ay tərsdi Röyalım mənim.

Çatıb balam bir yaşına
Əzizlər cəmdi başına,
Şirinlik qoşulub aşına,
Kişidi Röyalım mənim.

Elşən baba qoy diləsin
Nəvələr xoşbext böyüsün
Allahım özü qorusun
Gözəldi Röyalım mənim!
Əzəldi Röyalım mənim!

***23 iyul 2020 -ci il***
***Qobustan şəhəri***

# Vətəndaşlarımızın, qəhrəman hərbçilərimizin arxasında güclü Azərbaycan dövləti dayanır

İyulun 12-dən etibarən Ermənistan Respublikası Silahlı Qüvvələri Tovuz rayonu istiqamətində xaincəsinə, qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrimizi, dinc əhalini iri çaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutub. Bunun nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəyib. Dəymiş ziyanın aradan qaldırılması məqsədilə Ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. (Sərəncamın linki: https://president.az/articles/39864). Bu Sərəncamla mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə tapşırılıb.

Həyata keçirilən tədbirlər:

- Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Tovuz rayonunda işlərə başlanılıb və təcili tədbirlər görülür;
- Bu məqsədlə İşçi Qrup yaradılıb, mütəxəssislər cəlb edilib, ekspertlər dərhal Tovuz rayonuna ezam olunublar;
- Vəziyyətlə bilavasitə yerində tanış olmaq ucun hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlaklarının, dövlət obyektlərinin vəziyyəti öyrənilir, ekspertlər tərəfindən obyektlərə müayinə və ekspertiza işləri aparılır. Dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi təmin ediləcək;
- Ekspertlər tərəfindən hazırlanacaq və təqdim ediləcək qiymətləndirmə məlumatlarına əsasən, dinc əhaliyə, yaşayış ərazilərinə, dövlət və bələdiyyə əmlakına, təsərrüfatlara, infrastruktura dəymiş ziyanın aradan qaldırılması ilə bağlı hökumət tərəfindən Tədbirlər Planı hazırlanacaq;
- Hərbi hücum nəticəsində zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin sürətlə həyata keçirilməsi üçün təkliflər Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

Dəymiş zərərlə bağlı:

- Əsas ziyan Tovuz rayonunun 6 kəndinə - Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərinə dəyib;
- İlkin qiymətləndirmələrə görə, dinc əhaliyə məxsus 35 evin müxtəlif dərəcədə ziyan çəkdiyi müəyyən edilib;
- İntensiv atəş nəticəsində dövlət əmlakına da zərər dəyib - bu əsasən, kəndlərə çəkilən qaz boruları, elektrik naqilləri, sosial və rabitə infrastrukturudur.

İşlərin gedişinə nəzarət:

- İşlərin gedişi dövlət başçısının şəxsi nəzarətindədir;
- Mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün bütün qüvvələr səfərbərliyə alınıb. Dəymiş zərər tezliklə aradan qaldırılacaq. Ziyan dəymiş infrastruktur və evlər bərpa olunacaq. Həyat tamamilə öz məcrasına qayıdacaq;
- Azərbaycan dövləti vətəndaşının yanındadır. Dövlətimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşanları, canını fəda edənləri heç vaxt unutmur, onlara və ailələrinə hər zaman həssaslıqla yanaşır;
- Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində addımlar atılır;
- Dövlət başçısı İlham Əliyevin tapşırığı ilə şəhid general Polad Həşimov və şəhid polkovnik İlqar Mirzəyevin ailəsinə ev verilib;
- Mehriban Əliyeva Tovuz istiqamətində şəhid olan 12 hərbçi ilə bağlı Heydər Əliyev Fonduna tapşırıq verib. Şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları daim Fondun nəzarətində olacaq;
- Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində həlak olmuş şəhid hərbi qulluqçuların ailələrinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə müvafiq tədbirlərə başlanıb;
- Azərbaycan dövləti ölkə ərazisində vətəndaşlarının təhlükəsiz yaşamasının qarantıdır. Tovuza, tovuzlulara dəyən zərər tezliklə aradan qaldırılacaq. Vətəndaşlarımızın, qəhrəman hərbçilərimizin arxasında güclü Azərbaycan dövləti dayanır.

**Əlavə:**

- Cəbhəyanı rayonlarda infrastruktur bərpa olunur, yeni qəsəbələr salınır, yeni təsərrüfatlar, müəssisələr yaradılır.
- Şəhid ailələri dövlət hesabına evlə təmin edilir (indiyədək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7600-ə yaxın mənzil və fərdi ev verilib).
- Şəhid ailələrinə birdəfəlik yardım göstərilir (hər ailəyə 11 min manat olmaqla).
- 2 aprel 2016- cı il görüşlərindən sonra Prezident İlham Əliyevin yeni həyat bəxş etdiyi və "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində görülən işlər əyani misaldır. Cocuq Mərcanlı kəndində yem emalı müəssisəsi tikilib, istixanalar və arıçılıq təsərrüfatları, inkubator məntəqəsi fəaliyyət göstərir.
- Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması Ağdam və Tərtər rayonlarının hər birinə 3 milyon manat vəsait ayrılıb, yaşayış məntəqələrində ciddi ziyan dəymiş evlərin və sosial obyektlərin tikintisi, təmiri və bərpası işləri altı ay ərzində başa çatdırılıb (2016-cı il aprel döyüşləri zamanı mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı həmin vaxt aparılan işlərə dair arayış əlavə edilir):

Azərbaycan Prezidenti İlham Əliyevin "Erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" 2016-cı il may ayının 2-də imzaladığı Sərəncama əsasən, mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Ağdam və Tərtər Rayon İcra Hakimiyyətlərinin hər birinə 3 milyon manat vəsait olmaqla 6 milyon manat vəsait ayrılmışdı. Dövlətimizin başçısı işin gedişini xüsusi nəzarətə götürmüşdü. İşlərin qısa müddətdə və keyfiyyətlə görülməsi üçün bütün qüvvələr səfərbərliyə alınmışdı. Ermənistan silahlı qüvvələrinin iriçaplı silahlardan və artilleriya qurğularından açdıqları intensiv atəş nəticəsində yaşayış məntəqələrində ciddi ziyan dəymiş evlərin və sosial obyektlərin tikintisi, təmiri və bərpası işləri altı ay ərzində başa çatdırılıb.

Tərtər rayonunda ciddi dağıntıya məruz qalmış 4 ev yenidən tikilib, 8 ev bərpa olunub. Həmçinin 19 evdə əsaslı, 231 evdə isə cari təmir işləri aparılıb. Bundan başqa, Tərtər şəhər 6 saylı tam orta və 120 şagird yerlik Qazyan kənd ümumi orta məktəblərində əsaslı təmir işləri görülüb.

Ağdam rayonunda 5-i üçotaqlı, 3-ü dördotaqlı olmaqla 8 ev yenidən tikilib, 15 ev tamamilə bərpa olunub, 27 ev əsaslı təmir edilib, 693 evdə cari təmir işləri görülüb. Bundan əlavə, bir məktəb və iki uşaq bağçasında əsaslı təmir işləri həyata keçirilib.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru